# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ
# Q Ə R A R

**“Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 noyabr tarixli 631 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 noyabr tarixli 631 nömrəli Qərarında (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 1 may tarixli 33 nömrəli və 24 may tarixli 56 nömrəli qərarları, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 10, maddə 606; 2001, № 1, maddə 70, № 3, maddə 214, № 12, maddə 800; 2003, № 6, maddə 342; 2004, № 9, maddə 752; 2005, № 1, maddə 57, № 7, maddə 695; 2006, № 10, maddə 903; 2007, № 2, maddə 199, № 5, maddə 544; 2008, № 9, maddə 879; 2010, № 3, maddə 263, № 3, maddə 264, № 12, maddə 1123; 2011, № 8, maddə 776; 2012, № 12,

maddə 1368; 2013, № 2, maddə 201, № 10, maddə 1191; 2016, № 9, maddə 1585; 2017, № 4, maddələr 620, 643, № 12 (II kitab), maddə 2480; 2018, № 9, maddə 1908, № 10, maddə 2156; 2019, № 6, maddə 1156; 2020, № 4, maddə 497) aşağıdakı dəyişikliklər edilsin:

1. Adına "fövqəladə hallar" sözlərindən sonra "və vergi" sözləri əlavə edilsin.

2. 1-ci hissə üzrə:

2.1. birinci abzasa "fövqəladə hallar" sözlərindən sonra "və vergi" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda səkkizinci abzas əlavə edilsin və səkkiz-on doqquzuncu abzaslar müvafiq olaraq doqquz–iyirminci abzaslar hesab edilsin:

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin kiçik, baş və ali rəis heyəti vəzifələrində xidməti vəzifəyə təyin olunma günündən;";

2.3. on birinci abzasda "və fövqəladə hallar orqanlarının" sözləri ", fövqəladə hallar orqanlarının və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin" sözləri ilə əvəz edilsin;

2.4. on üçüncü abzasda "Prokurorluğunda" sözündən sonra "və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində" sözləri ilə əvəz edilsin;

2.5. on dördüncü abzasa "yüksək" sözündən sonra "və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin kiçik, baş və ali" sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 16 fevral 2022-ci il

№ 42